BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 01 (03) MART (MART) 2005

# QAZI BÜRHANƏDDİNİN HƏYATI

*Siracəddin Hacı*[1]

## I. XIV YÜZİLLİK VƏ QAZI BÜRHANƏDDİNİN YERİ

Qazı Bürhanəddin Əhməd türk tarixinin, ədəbiyyatının, elminin, siyasət və dövlətçiliyinin keçdiyi yolda ayrıca yer tutur. Türk düşüncə tarixinə incə, aşiqanə, eləcə də igidlik, ərənlik motivləri ilə dolu şeirləri, yetkin dini əsərləri, parlaq dövlətçilik istedadı, fatehlik əməlinin olması ilə yerləşən Qazı Bürhanəddin milli dəyərlərin irəliləməsinə böyük yol açdı. «Anadolu bəyləri arasında onun qədər fəal, savaşdan-savaşa getmiş bir bəy daha yoxdur. Bunun üçündür ki, müsəlman yazarlar tərəfindən «fəth atası» ləqəbi verilib... Qazı alim, adil, iti yaddaşlı, yorğunluğa, soyuq və istiyə dözümlü, sərt, çəkinməz, zövq və səfaya düşgün, şərab və saz toplantılarından çox xoşlanan, iyi ürəkli, alimlərə yaxın, həssas bir adam, bağışlayıcı, yaxşılıqsevər, nəşəli bir xarakterə sahib idi. « (1, 44)

Qazı Bürhanəddin bütövlükdə türklüyün keçdiyi yolun, XIV yüzillikdə baş verən siyasi, ədəbi mübarizənin ortaya çıxardığı şəxsiyyət olduğundan onun siyasi və ədəbi kimliyinin biçimlənməsində bu dönəmin silinməz izləri var.

XIV yüzildə Anadoluda, Azərbaycanda, Rum elində islamlaşma və türkləşmə axını güclənir. Böyük alim Fuad Köprülüyə görə «...XIV yüzil Anadolu türk ədəbiyyatının böyük bir qüvvətlə inkişaf etdiyi, milli dilin din və elm lisanı olan ərəbcə ilə ədəbiyyat dili olan farscaya qarşı uğurla mücadilə etdiyi bir dövrdür... Firdovsi, Nizami, Əttar, Sədi, Mövlanə, Salman Savəçi, Kamal Xucəndi kimi İran şairləri təqlid və tərcümə ediliyor, lisan yavaş-yavaş ərəb və əcəm ünsürləri ilə doluyor, bu lisanların qramerləri türkcəyə bir takım qaidələr vermək surəti ilə milli lisanın istiqlalını və estetiyini pozmaq istedadı göstəriyor. İran ədəbiyyatının

[1] Azerbaycan Elmler Akademiyasının Nizami Adına Edebiyat İnstitunun Baş Elmi İşçisi, Filologiya Elmler Namzedi.

nəzm şəkilləri və qaydaları iqtibas edilyor, fəqət hənuz türkcə kəlmələr bolca kullanılmaqla ərəb və əcəm dillərinin hakimiyyəti sonrakı əsrlərdə olduğu kimi hiss edilməkdədir. Daha XIII yüzildə ədəbi Anadolu türkcəsi aşağı-yuxarı təəssüs etmiş olduğu üçün XIV yüzildə Anadolunun müxtəlif sahələrində yazılmış əsərlər arasında ləhcə nöqsanlarından başqa bir şey gözə çarpmıyor...» (2, 352-353)

XIV yüzillikdə Hurufilik adlı ədəbi, fəlsəfi, eləcə də siyasi axın Azərbaycan türk ədəbiyyatının irəliləməsinə, formalaşmasına geniş yol açır, ona yeni bir məzmun və şəkil verir.

XIV yüzillikdə «dindışı ədəbiyyatın» gücləndiyi görünür. Sevgilinin təbii gözəllikləri, buna uyğun bədii təsvir və ifadə vasitələri milli ədəbiyyata ayaq açır. Bununla da türk şeiri özünə bağlı üslub və estetikanı daha çox milliləşdirir.

Bu dönəmdə ədəbi Azərbaycan türk dilinin inkişafı güclənir. Milli ədəbi dil ədəbiyyatın başlıca dilinə, milli ruhun ifadəçisinə çevrilmək yönündə ciddi addımlar atır.

XIV yüzilədək yaranmış siyasi və mədəni ənənələr bu və sonrakı yüzilliklərdəki yeni milli dövlətlərin ortaya çıxmasına yol açır. Milli dövlətlərin yaranması milli mədəniyyətin qorunması və inkişafını yönləndirir. Milli ədəbiyyatın ərəb və fars basqısından qurtulmasında milli dövlətlərin dəyişdirilməsi mümkün olmayan ayrıca yeri var.

Qazı Bürhanəddin kimi böyük şəxsiyyətin milli mədəniyyətin qorunması, yaranması və irəliləməsindəki yeri bir də onun dövlət quruculuğu ilə bağlıdır. Qazının qurduğu dövlət onun bağlı olduğu millətin ucalmasına, irəli getməsinə xidmət etməyi şərəfli iş saydı.

Qazı Bürhanəddinin ömür yolunu, siyasi, hərbi, elmi, dini, ədəbi çalışmalarını dərindən və sevgi ilə araşdıran türk tarixçiləri, ədəbiyyatşünasları onun ümumitürk düşüncə tarixində önəmli yer tutduğunu göstəriblər. Türk alimləri Qazı Bürhanəddinin varlığını bütün çalarları ilə göstərməklə bağlı onu yuxarıda bir-bir sadalanan yönlərdə araşdırmışlar.

## II. QAZI BÜRHANƏDDİN QAYNAQLARDA

Türk alimlərinin Qazı Bürhanəddinlə bağlı araşdırmaları sırasında onunla birbaşa, ya da dolayısı ilə ilgili olan türk, ərəb, fars və Avropa dillərində yazılmış tarixi qaynaqların, salnamələrin, təzkirələrin, xatirə və

səyahətnamələrin tapılması, araşdırılması, tərcüməsi və nəşri ayrıca yer tutur. Bu qaynaqlarda göstərilən faktların, ayrı-ayrı bilgilərin bir-birinə uyuşmaması, əsərlərin yazılması və üzünün köçürülməsində yol verilən çoxsaylı yanlışlıqlar Qazı Bürhanəddinin ömür yolu, ədəbi, siyasi və elmi yaradıcılığı ilə bağlı çeşidli düşüncələrin ortaya çıxmasına yol açdı. Bu çətinliklərin səbrlə aradan qaldırılması, buna uyğun olaraq da Qazı Bürhanəddinin yetkin ömürlüyünün yazılmasında, onun olduğu kimi göstərilməsində görkəmli türk alimi, professor Yaşar Yücelin elmi işləri böyük önəm daşıyır. (3, 4, 5, 6)

Professor Yaşar Yücel XIV yüzildən başlayaraq XX yüzil də olmaqla bu dönəmdə yazılmış qaynaqları sistemləşdirərək onların Qazı Bürhanəddinlə bağlı yönlərini önə çəkmişdir. Alim bu qaynaqları üç yerə ayırıb. Birincisi, Qazı Bürhanəddin Əhmədin ailəsi ilə bağlı bilgi verən Anadolu Səlcuqları dönəmində yazılmış salnamə, sərgüzəştnamələr. İkincisi, Qazı Bürhanəddinin kimliyi, yüksəlişi və hökmdarlığı dönəminə bağlı bilgilərin yer tutduğu Anadolu bəylikləri dövrünün salnamələri. Üçüncüsü, Qazı Bürhanəddinin qonşu siyasi birləşmələr- Məmlük, Osmanlı, Teymur, Ağqoyunlu dövlətləri ilə ilişgilərindən danışan salnamələr.

Bu ayrı-ayrı dillərdə və əski əlifbanın çeşidli xətlərində yazılan qaynaqları sistemləşdirən alim onları belə sıralayıb:

1. Anadolu Səlcuqları dövrünə bağlı salnamə və məhdnamələr –İbn Bibi «Əl-Avamir əl-Əlaiyyə», Ağsaraylı Mahmud «Musamarat əl-Əxbar», Niqdəli Qazı Əhməd «Əl-Vələd Əş Şəfi», Əflaki «Mənaqib əl-Arifin».

2. Anadolu bəylikləri dövrünə bağlı salnamələr –Əziz İbn Ərdəşiri Astrabadinin «Bəzm və Rəzm» (bu əsər Qazı Bürhanəddinlə bağlı başlıca qaynaqlardan sayılır), Şikari «Qaramanoğulları tarixi».

3. Ərəb, Teymur, Osmanlı və Ağqoyunlu dönəminə bağlı salnamələr- Əl-Qalqaşandi «Sübh əl-Aşa», İbn Sasra «Əd-Dürr Əl-Mudia», İbn Dukmak «Əl-Cauhər», İbn Dukmak «Məcmuə», İbn əl-Furat «Tarix əd-Duvəl», İbn Xəldun «Ünvan əl-İbrar», Əl-Məqrizi «Əs-Suluk», Əl-Ayni «İqd əl-Cuman», İbn Hacər «İnba əl –Ğumr», İbn Hacər «Durar əl-Kəminə fi Əyan əl-Miəs-Səminə», İbn Qazı Şühba «Əz-Zeyl Alə Tarix əl-İslam», İbn əş-Şiha «Raudət əl-Mənazir», İbn Xətib ən Nasiriyan «Əd-Dürr əl-Müntəhab», İbn Tağribirdi «Ən-Nücum əz-

Zahira fi Muluk əl-Misr vəl -Qahira», İbn Tağribirdi «Əl-Mənhəl əs-Safi vəl-Mustaufi bad-vafi», Nizaməddin Şami «Zəfərnamə», Şərəfəddin Əli Yəzdi «Zəfərnamə», Hafiz Əbru «Zubdət ət-Təvarix», İbn Ərəbşah «Əcaib əl-Məqdur», Oruc Adil «Təvarixi-Ali-Osman», Ruhi Çələbi «Təvarixi-Ali Osman», «Cihannüma», müəllifsiz «Təvarixi-Ali-Osman», müəllifsiz «Tarixi-Ali-Osman», müəllifsiz «Təvarixi-Ali-Osman», Kamal Paşazadə «Təvarixi-Ali-Osman», İdris Bitlisi «Həşt Behişt», Şükrullah «Bahcət ət-Təvarix», Lütfi Paşa «Təvarixi-Ali-Osman», «Osmanlı tarixinə Aid təqvimlər» (Nihal Adsızın nəşri), Xoca Sədəddin «Tac ət-Təvarix», Sarı Abdullah «Münşaati-Farisi-Süleymaniyyə», Əbu Bəkr Tehrani «Kitabi-Diyarbəkriyyə».

Professor Yaşar Yücel Qazı Bürhanəddinlə bağlı XX yüzillikdə yazılmış qaynaqlar sırasında Əhməd Tevhidin «Qazı Bürhanəddin Əhməd» adlı 1912, 1913-cü illərdə yazılmış altı məqaləsini, görkəmli türk tarixçisi, professor İsmayıl Haqqı Uzunçarşılının 1928-ci ildə yazıb İstambulda çap etdirdiyi «Sivas şəhəri» kitabını, Azərbaycanın istiqlal mücadiləsinin idoloqlarından biri olan Mirzə Bala Məmmədzadənin «İslam Ensiklopediyası»na yazdığı «Qazı Bürhanəddin» məqaləsini də ayrıca göstərib. (3, 12)

## III. QAZI BÜRHANƏDDİNİN SOYU

Qazı Bürhanəddin Əhmədi araşdıran, az da olsa onunla bağlı görüşlərini açıqlayan türk alimləri şairin bağlı olduğu soyun kimliyini dəyərləndirmişlər. (2, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16)

Qazının kimliyi məsələsi şairin sağlığında, eləcə də ondan sonra yazılmış çoxsaylı qaynaqlarda özünə yer tutub. Çağdaş türk alimləri də araşdırmalarında bu qaynaqları və şairin Divanını əsas götürmüşlər. Bu qaynaqlara görə Qazı Bürhanəddinin kimliyini ortaya qoyan, onun soyundan tutmuş doğulduğu yer, şairin ömür yolu, bağlı olduğu çevrələr, qurduğu dövlət, Qazının ədəbi kimliyi, onun xarakterinin özəlliklərinədək dolğun bilgi verən ən dəyərli tarixi qaynaq Əziz İbn Ərdəşiri-Astrabadinin «Bəzm və Rəzm» əsəridir. Görkəmli türk alimi Fuad Köprülü bu qaynağı yüksək dəyərləndirərək onun «...yalnız siyasi və əsgəri hadisələr haqqında deyil, Anadolunun tarixi topoqrafisi, mədəni tarixi, etnolojisi haqqında bir yığın malzəmə ...» olduğunu göstərib. (17, 387)

Qazı Bürhanəddinin kimliyindən yazan çağdaş Türk alimləri də «Bəzm və Rəzm»i əsas götürərək burada deyilənləri başqa qaynaqlarda göstərilənlərlə tutuşdurmuş, şairlə bağlı bitkin bir ömürlük yazmışlar.

Qaynaqlara görə Qazı Bürhanəddinin soyundan Məhəmməd Xarəzmdə yaşayan türkmənlər arasında önəmli yeri olan Salurlardan olub və sonradan Xarəzmdən Qastamonya köçüb. Onun yurd yerini dəyişməsinin tarixi ilə bağlı dəqiq bilgi yoxdur. Ehtimallara görə bu köç XIII yüzilliyin başlanğıcında olub. Görkəmli türk ədəbiyyatşünası Əhməd Qabaqlı bəlli bir qaynaq göstərmədən bu yerdəyişmənin 1230-cu ildə olduğunu yazıb. (7, 212)

Xarəzmdən Qeysəriyə gələn Məhəmmədin atası Rəsul, babası isə Sevincdir. Məhəmmədin oğlu Cəlaləddin Həbib Qastamonuda doğulub. Təhsildən sonra Anadolu Səlcuq dövlətinin nümayəndələrindən vəzir Qazı Xotəninin kürəkəni olmuş, elə buna görə də Qeysəri qaziliyini əldə etmişdir.

«...Qazı Hüsaməddin Hüseyn Anadolu Səlcuq dövləti ümərasından birinin qızını alaraq buna görə varlı olmuş və bu izdivacdan Siracəddin Süleyman dünyaya gəlmişdir...İkinci İzzəddin Keykavusun qızlarından birini Moğol ümərasından birisi almış və bu izdivacdan doğan qızla da Siracəddin Süleyman evlənmişdir. Bu izdivacdan doğan Şəmsəddin Məhəmməd Qazı Bürhanəddin Əhmədin atasıdır... Şəmsəddin Məhəmməd Səlcuq ümərasından Mahmud Mustovfinin torunu olan bir qızla evləndikdən sonra Qazı Bürhanəddin doğulmuşdur.» (18, 192-193)

Qaynaqların yazdığına görə Məhəmməd Mustovfi Anadolu Səlcuq hökmdarı üçüncü Qiyasəddin Keyxosrov zamanında maliyyə vəkili olub. Qazı Bürhanəddinin dayısı əmir Yusif Çələbinin övladlarından olduğu da qaynaqlarda göstərilib.

Tarixçi İsmayıl Haqqı Uzunçarşılıya görə Əziz Astrabadinin «Bəzmü Rəzm» əsərini Qazı Bürhanəddin özü müəllifə yazdırıb. Əziz Astrabadi onun soyu və bir sıra başqa məsələləri Qazının dilindən eşidib. Ona görə də Qazi bu qaynaqda atasının anası yolu ilə Anadolu Səlcuq ailəsindən olduğunu göstərib. Bu bilginin doğruluğunu göstərən yetərincə qaynaq yoxdur.

Məhəmmədin Qastomonda bir oğlu olmuş və onun adını Cəlaləddin Həbib qoymuşlar. Cəlaləddin Həbib «...qazı Cəmaləddin Xotəninin

kürəkəni olmuş, ondan hörmət və iltifat görmüşdür. Sonralar onun vasitəsi ilə Qeysəri Qazısı təyin edilmiş, bununla yanaşı Qeysəri vilayətindəki vəqflərə nəzarət, gəlir və məsrəflərin vəqfin şərtlərinə uyğun olaraq ziyana uğramamasını təmin etmək işi ona tapşırılmışdı...» (19, 15)

Cəmaləddin Həbibdən sonra Qeysəridə onun oğlu Hüsaməddin Hüseün, nəvəsi Siracəddin Süleyman qazı olmuşlar. Siracəddin Süleyman Qazı Bürhanəddin Əhmədin babasıdır. Qazı Bürhanəddinin atası Şəmsəddin Mahmuddur. Onunla bağlı bilgi çox azdır və bir sıra qaynaqlar Qazı Bürhanəddinin atasının adının Abdullah olduğunu yazmışlar.

Qazı Bürhanəddinin anası «...Səlcuq dövrünün nüfuzlu şəxslərindən biri olan Cəlaləddin Mahmud Mustovfinin oğlu Abdullah Çələbinin qızıdır. « (19, 16)

Qazı Bürhanəddin soykökünün Xarəzmdən olduğunu Divanında bir yanğılı şeiri ilə göstərib:

Olur eşqində əzmüm cəzm hər dəm,
Qılur gözün dil ilə rəzm hər dəm.

Cigər qanımı dökə gözlərüm ki,
Qıla ləli-lübünlə bəzm hər dəm.

Bana Xorəzm oldı nəğmən ilə,
Düşəli yaduma Xorəzm hər dəm.
Mübərkadan nəva bulalı könlüm,
İraqa qıla dilər əzm hər dəm.

Gətür saqi cigər qanın içəlüm,
Ki əzm oldur ki, ola rəzm hər dəm. (20, 115-116)

Qazı Bürhanəddin Əhmədin bağlı olduğu soyun cədvəlini ondan danışan bütün qaynaqlara arxalanaraq görkəmli türk tarixçisi İsmayıl Haqqı Uzunçarşılı tərtib edib. (21) Qazının soy ağacı bir az fərqli olsa da «Türk Ensiklopedesi»ndə də verilib. (14)

## IV. QAZI BÜRHANƏDDİNİN DOĞUM İLİ VƏ YERİ

«Şair, qazı, atabəy, hökmdar» olan Qazı Bürhanəddinin doğum ili qaynaqlarda çeşidli tarixlərlə göstərilsə də, türk ədəbiyyatşünaslıq və tarix elmində qəbul olunmuş tarix miladi 1344- hicri 745- ci ildir. Alimlərin çoxu bu ili Qazının anadan olduğu tarix kimi doğru sayırlar. Ancaq Qazı Bürhanəddinin dəyərli araşdırıcılarından olan professor Yaşar Yücel 1987-ci ildə Ankarada çap etdirdiyi «Qazı Bürhanəddin» adlı əsərində şairin doğum ili olaraq 1345\746-cı ili göstərib. Ancaq alim sonradan 1344/745-ci ilin doğru bir tarix olduğunu yazıb. Şairin 1345/746-cı ildə doğulduğu birdə «Türk Ensiklopedisi»ndə döstərilib. (14)

Qazı Bürhanəddin Əhməd 1344\745-ci ildə Ramazan ayının (Yanvar) 8-də Qeysəri şəhərində anadan olub. Onun Qeysəridə doğulduğunu bütün qaynaqlar, eləcə də çağdaş türk alimləri yazıblar. Bu məsələdə başqa mövqe tutan tək bir alim Azərbaycan istiqlal hərəkatının liderlərindən biri olan Mirzə Bala Məmmədzadə şairin doğum yeri olaraq Ərzincanı göstərib. Ancaq alim bu mövqeyinin doğruluğunu bildirən qaynaq verməyib. (11)

Bürhanəddinin doğulduğu Qeysəri şəhəri əski tarixi olan mədəniyyət beşiyidir. Bu şəhər türklüyün siyasi və mədəni dirçəlişini yönləndirən, türk varlığını qoruyub saxlayan yurd yeridir. «Səlcuqlu şəhirlərinin tipik bir misalı olan Qeysəri, «Sur» adı verilən çarşıları, came, mədrəsə, hamam kibi sosio- kültürəl yapıları, surların həmən dışında inşa edilən külliyələri, giriş qapıları yanında yer alan bazar yerləri, dar sokakları, bu sokakların kəsişdiyi yerlərdəki, ya da came önlərindəki meydanları ilə Orta çağ görnüşünü son yıllaradək qorumuşdur...» (22)

Qeysəri iç qala qapıları, sur qapıları, boyaçılar çarşısı, İmarət sarayı, qalaları ilə də tarixə düşüb. Qeysərinin came və mədrəsələri şəhərin siyasi, elmi, dini, mədəni gəlişməsində önəmli yer tutub. «...Qazı Bürhanəddinin şəhərə girdiyində bu mədrəsələrdən birinə enmiş olması da mədrəsələrin artıq tamamən iqamət alanı içərisində qaldığını göstərməkdədir...» (22, 34)

Qeysəri şəhəri eləcə də böyük ticarət yeri olub. Şəhərin siyasi, mədəni, iqtisadi bir mərkəzə çevrilməsi Səlcuqların əməyidir. Elə Qeysərinin dirçəlişi də Səlcuqların adına bağlıdır. Buna görə də Səlcuq qaynaqlarında Qeysəri şəhəri «Darül-mülk», ya da «Darülfəth» adlan-

dırılıb. «Bəzmü Rəzm» də isə Qeysəri şəhərinə «Rum qeysərilərinin baş kəndi» deyilərək onun çox əski bir tarixi olduğu önə çəkilib. (22, 32)

## V. QAZI BÜRHANƏDDİNİN UŞAQLIĞI VƏ TƏHSİLİ

Bu qədim tarixi olan Qeysəri şəhərində doğulan uşağın adının Bürhanəddin qoyulmasının nə ilə bpğlı olduğunu Müjgan Ücər belə açıqlayır: «Qazı Bürhanəddinin anası Qeysəridəki Seyyid Bürhanəddin türbəsini ziyarətlə bir erkək övlad istəmiş, adını da onun adına uyğun qoymuşdur. Seyid Bürhanəddin Mövlananın xocası olub. Qeysəridəki türbəsini bu gün də xalq hər türlü adak, dilək üçün ziyarət etməkdədir. » (23, 345)

Qazı Bürhanəddin Əhmədin anası dünyadan köçəndə onun iki yaşı var idi. Bürhanəddinin anası çox erkən dünyasını dəyişib. Bürhanəddinin uşaqlığı atasının qayğısı, əməyi ilə ciddi nəzarət altında və çox səmərəli keçib. Atası onu elmə doğru yönəldib. Bürhanəddinin fitri istedadı atasında onu gələcəyin böyük şəxsiyyəti kimi hazırlamaq düşüncəsini yaradıb. O, dörd yaşında olarkən təhsilə başlayıb. Ərəbcə, farsca öyrənib, bu dillərdə yazılmış əsərləri oxuyub. Farsca bir əsəri sərbəst oxuduğundan tanınmış şeyxlərdən olan Əli Misri mükafat olaraq onun belinə kəmər bağlayıb.

Bürhanəddin 12 yaşında dil, sərf-nəhv, ritorika, bəyan, əruz, hesab, məntiq və hikmət elmlərinə yiyələnib. O, bu yaşından başlayaraq müəllimlik də edirdi. 1356-cı ildə Bürhanəddin atası ilə birgə Suriyaya gedir. Ölkədəki qarışıqlığa son qoyulandan sonra yenidən Qeysəriyə qayıdır. Ağıllı, elmli olması onun şöhrətini günü-gündən artırır. Bürhanəddin atası yerində olmayanda qazılıq vəzifəsini də yerinə yetirir. «...Artıq qalan boş vaxtlarında ox atmaq, at çapmaq, qılınc oynatmaq kimi idman oyunları ilə məşğul olurdu. Bundan başqa sadə hərb alətləri düzəltmək və onları təmir etmək də onun asudə vaxtlarını sərf etdiyi işlərdən idi. » (19, 17)

Bürhanəddin 14 yaşında atası ilə birgə Misirə gedir. Burada fiqh, üsuli-fiqh, hüquq, hədis, təfsir, astronomiya, tibb sahəsində biliyini artırır, hənəfi, şafeyi, maliki, hənbəli məzhəblərini öyrənir. Bürhanəddin bu arada dövrün tanınmış elm və siyasət adamları ilə də görüşür. Böyük alim Mövlanə Qütbəddin Razini görmək amacı ilə 1362-ci ildə Şama gəlir. İl yarım ondan dərs alıb təbiət, riyaziyyat, ilahiyyat elmlərini öyrənir.

Bürhanəddin 19 yaşında Şamdan Həccə gedir. Anadoluya qayıdarkən atasının Suriyada dünyasını dəyişdiyini bilir. O, bununla bağlı Hələbə gəlir, bu şəhərdə bir il qalaraq elmi biliyini artırır.

Misir, Şam və Hələbin elmi mühiti Bürhanəddinin yetkin şəxsiyyət kimi ortaya çıxmasına yol açır. Bürhanəddin 1364-cü ildə Qeysəriyə qayıdır. «1365-ci ilin başlanğıcında Ertena oğlanlarından Məhəmməd 21 yaşlı Bürhanəddini qazı təyin edir...O, eləcə də hökmdarın kürəkəni olur...» (19, 18)

## VI. QAZI BÜRHANƏDDİNİN SİYASİ YÜKSƏLİŞİ

Ağıllı, elmli, istedadlı, xeyirxah və ədalətli olduğundan Qazı Bürhanəddin az vaxtda böyük uğurlar qazanır. «...Bürhanəddin qazılıqda böyük səlahiyyət və bacarıq göstərmiş, bəylik daxilində hökm sürməkdə olan idarə özbaşnalığı və iqtisadi böhrandan istifadə edənlərin əlinə keçmiş məscidlərin vəqf mülkiyyətini, mədrəsələri, zaviyə, şəfəxana, xanəgah və başqa vəqf idarələrini onların əlindən almış, vəqflərə nəzarət edərək qazanc və məsrəflərin vəqfin şərtlərinə uyğun olaraq ziyana uğramamasını təmin etmişdir. O, vəzifə sahiblərinin işinə nəzarət edərək onların vəzifədə irəliləyişini izləmiş, beləliklə də vəqf idarələrinin vəziyyətini tezliklə sahmana salmışdır. Ayrı-ayrı mübahisələri həll edərkən, çəkişmə və düşmənçiliyi aradan qaldırarkən dövlətli və kasıb, yad və tanış arasında fərq qoymadan qazılıq edən Bürhanəddin məhkəmə idarəsinin heysiyyat və nüfuzunu yenidən bərpa edə bilmişdir. Bu hal qısa müddətdə şöhrətinin ölkə daxilində yayılmasına, geniş xalq kütləsinin ona qarşı məhəbbət və hörmətinə səbəb olmuşdur... Bürhanəddindən razı kütlə heç bir sülaləyə, ya da Xanədana mənsub olmayan qazının gələcək siyasi yüksəlişində yeganə arxası, bu işdəki uğurunun başlıca ünsürü olacaqdır.» (19, 18)

Yetkin təhsil görmüş, dövlətin yönləndirilməsinə gərək olan bütün elmləri öyrənmiş Bürhanəddin 765 hicri-1364 miladi ilində Qeysəriyə gəlir. O, bu şəhərin qazısı olmaq istəsə də, düşmənlərinin ciddi müqaviməti ilə üzləşir. Ancaq bir ildən sonra 1365-ci ildə Bürhanəddin Əhməd 21 yaşında Qeysərinin qazısı olur.

Bürhanəddin Əhmədin qazılığı Eretna dövlətinin gücsüz olduğu bir vaxta düşür. «Eretna dövlətini İlxanilər zamanında Məmaliki-Rum

deyilən Orta Anadoluda XIV əsrin ilk yarısında 736 hicri 1335 miladidə Moğol əmirlərindən Ələddin Eretna qurub. » (24, 161)

Bir sıra türk tarixçiləri «Eretna»nı «Ertena» kimi oxusalar da İsmayıl Haqqı Uzunçarşılı «Bəzmü Rəzm», «Ayanül-əsr», «Dürrətül-Əslak», «Düsturnamə», «Divan-ül-lüğət-it türk»dən çıxış edərək «Eretna»nın bu biçimə uyğunlaşanadək göstərilən qaynaqlarda «Erdini», «Ertini» biçimində olduğunu yazıb. «Eretna» adı «dürri-yetim»- böyük inci anlamına gəlir.

Bir sıra alimlər Eretnanı soykökü baxımından Monqollara bağlasalar da bu dəyərləndirmələrin yanlışlığı üzə çıxır. Eretna soyuna görə türklərə bağlı olub Monqolların xidmətinə girmiş şəxsiyyətdir. Tarixçilər Eretnanın uyqur türklərindən olduğunu da aydınlaşdırıblar.

Eretna aşağı-yuxarı 742 hicri-1341 miladidə Misirdən ayrılaraq istiqlalını bəyan edib. «...Bütün ərəb tarixçiləri Noyin, Noyan, Nivin ləqəbləri ilə zikr etdikləri Eretnanın uzaqgörən, xeyirxah, cəsur, dindar, iri bədənli olduğunu göstərərək adil və gözəl təbiətli olmasından dolayı xalq arasında «Kösə peyğəmbər» deyirlərmiş... «Ayan-üləsr»də yazılır: «Eretna xeyirli bir adamdır. Dəyanət sahibi olub... İslamiyyətin hami və müdafiəçisi idi. Məclisi Üləmadan xali olmazdı və onlarla müzakirə edərək fikirlərindən istifadə edərdi. Müsəlmanlar bu adamdan daima iyilik gördülər, ona müraciət edənlər onun ənam və ehsanına nail olurlardı. Eretna ölüncəyədək bu hal davam etdi. Bunun vəfatı ilə müsəlmanlar böyük bir yardımçı qeyb edərək düşmənlərinin zərərlərini gördülər. » (24, 172)

Eretna dövləti ancaq Eretna dönəmində güclü olmuşdur. Ondan sonra gələnlər dövlətçiliyə uyğun başarılar göstərə bilməmiş, bununla da dövlət 46 il ömür sürərək sona yetmişdir.

Eretna dövlətinin iki mərkəzi var idi: Sivas və Qeysəri. Eretna çox zaman Sivasda olurdu. Türbəsini isə Qeysəridə tikdirmişdi. Bu iki şəhərdən başqa «...Amasya, Toqat, Çorum, Dəvəli, Qarahisar, Ankara, Zilə, Canik, Ürgüb, Nicdə, Aksaray, Ərzincan, Doğu Qarahisar və bununla Civar qəsəbə və nahiyələr Eretnaya bağlı idi. Darəndə qəsəbəsi də Eretnaya tabe ikən Misir Höküməti zəbt etmişdi. Bu şəhərlərdən bir çoxu Eretnadan sonra yavaş –yavaş əldən çıxdı. « (24, 176)

Professor İsmayıl Haqqı Uzunçarşılı «Tarixi-Olcaytu», «Bəzmü Rəzm», «Tarixi-Osmanlı Əncümənin Osmanlı tarixi», «Düvəli-İslamiyyə», Şikari, Əhməd Tovhid bəyin «Tarix Əncünəmi» toplusundakı məqaləsi, «Cami-üd-düvəl», «Eretna və Qazı Bürhanəddin tarixçəsi», «Sivas şəhri» adlı qaynaqlara görə Əlaəddin Eretna və övladlarının soy ağacını tərtib edib.

Bürhanəddin Əhməd Qeysəri qazısı olanda dövlət içində qarışıqlıq, saray çəkişmələri, özbaşnalıq var idi. Çevrilişlər, qətllər nəticəsində tez-tez dəyişən hakimiyyət xalqın ehtiyaclarını yerinə yetirə bilmirdi.

Deyildiyi kimi Bürhanəddin Əhməd Qazı təyin olunanda Eretna dövlətinin içində bu dövlətin varlığını aradan götürə biləcək qarışıqlıqlar var idi. Yüksəliş dönəmini Eretnanın başçılığı ilə yaşamış bu dövlət Eretnanın oğlu Məhəmməd Bəyin ölümündən sonra çıxılmaz duruma düşdü. «Onun yerinə keçən oğlu Əli bəy gənc, ancaq zəif iradəli, qabiliyyətsiz bir adam idi. Son dərəcə süst olan yeni hökmdar ölkə içindəki vəziyyəti ələ ala bilmədi, Əmirlər arasında haçalanma və rəqabət isə ölkəni dəhşətli anarxiya ilə üzləşdirdi...Əyalətin əsas əhalisini təşkil edən monqol və türkmən kütlələri qiyamçılarla birlikdə ayağa qalxmışdılar... Əli bəyin hakimiyyətə keçməsi daxili və xarici düşmənləri ürəkləndirib hərəkətə gətirmişdi...» (19, 19-20)

Qazı Bürhanəddin qazılığı dönəmində tutduğu vəzifəyə uyğun önəmli işlər görərək xalq arasında dəyərini artırmaqla birgə ona uyğun olaraq Eretna dövlətinin içində hakimiyyət uğrunda gedən qanlı mübarizədən də qıraqda durmamışdı. O, xalq arasında siyasi nüfuzunu artırmaqda dərvişlərdən də yararlanaraq «hakimiyyətin onun taleyinə yazıldığı inamını» yaymaqdan çəkinməmişdir.

Bürhanəddin Əhməd qazılıq dönəmində (1365-1378) yetkin bir insan, bacarıqlı, iradəli dövlət xadimi kimi yetişdi. «...Çox zəki, pək müdəbbir və bəsirətli, diqqətəşayan dərəcədə iş bilir, mümtaz bir qazı, mümtaz bir vəzir, alim, şair və cəsur bir hökmdar idi. Güclü zəkası ilə əsrinin bütün biliklərini əldə etmiş, qılınc və qələmi də eyni məharətlə kullanıb. « (11, 48)

Qazı Bürhanəddin ehtiyacı olanlara umacaqsız əl tutdu, elmi, ədəbi, siyasi hüquqi biliklərini xalqın xidmətinə yönəltdi. O, bununla da dövləti idarə edənlərdən ayrı bir insan olduğunu göstərdi və xalqı özünə inandıra

bildi. Elə buna görə də qazılığı dönəmindən çox uğurla yararlanaraq iki başlıca məsələni yoluna qoydu.

Birincisi, ağıllı, bilikli, bacarıqlı, iradəli, siyasi baxımından yetkin olduğundan, xalq arasında çox sayıldığından hakimiyyət uğrunda gedən qanlı mübarizədə çaşmadı, özünün varlığını qorudu və məqsədinə doğru addım-addım irəlilədi. İkincisi, qazı Bürhanəddin Əhməd bu dönəmdə Eretna dövlətinin siyasi mənafelərini, dövlətin imkanlarını doğru dəyərləndirdi. Özünün dövləti dirçəltmək, onu irəli aparmaq imkanlarının olduğunu gördü. Dövlətin sınırlarını genişləndirmək, «...mərkəziyyətçi idarə qurmaq, dövlətin müqəddəratını öz əlinə almaq» Qazı Bürhanəddinin düşüncəsinə bu dönəmdə yerləşdi.

Bu dönəmdə Qazı Bürhanəddinin ən ciddi uğurlarından biri də dostları və düşmənlərinin onun varlığını qəbul etməsi idi. Qazı Bürhanəddinlə birgə olmaq hakimiyyət uğrunda mübarizə aparan qruplara böyük üstünlük qazandırırdı. Elə buna görə də hakimiyyətini gücləndirmək istəyən Əli Bəy 1378\780-ci ilin may ayında Qazı Bürhanəddini vəzirliyə dəvət etdi.

Qazı Bürhanəddin Əhməd vəzirliyi dönəmində də başladığı yolla getdi. O, siyasi imkanlarını artıraraq məqsədinə doğru irəlilədi. Bürhanəddin Əhməd bir yandan qarşısında duran rəqiblərini bir-bir sıradan çıxartdı, başqa yöndən isə önəmli işlər görərək xalqla birgə olduğunu göstərdi. Hakimiyyətdə olan sülalə ilə birbaşa bağlılığı olmayan Qazı Bürhanəddin Əhmədin hakimiyyət uğrunda mübarizədə ən güclü dayağı xalq idi. O, bu önəmli məsələni doğru dəyərləndirdiyindən ardıcıl olaraq xalqın ehtiyaclarına uyğun işlər gördü. Nəticədə xalq azyaşlı hökmdar olan Əli bəyin vəziri Qazı Bürhanəddin Əhmədin artıq öz lideri olduğunu düşünürdü. Vəzirliyi dönəmində bu sonucu əldə etməsi Qazının ən ciddi uğuru sayıla bilər. «Vəzirliyi dövründə Qazı qısa bir müddətdə bütün işləri əlinə aldı. Xalqın iqtisadi vəziyyəti ilə bağlı ədalət məhkəməsində və dövlət idarə sistemində islahat keçirib daxili siyasətlə bağlı başlıca məsələləri yoluna qoydu. Xalqla dövlət arasındakı münasibətləri sahmana saldı, şəhərli və kəndli kütlələrini əzən iqtisadi ehtiyacları qismən də olsa aradan götürə bildi. Bir yandan da əvvəllər dövlətin idarə işində çalışan, əsli-nəsli olan ailələri nüfuzdan salıb onun əmr və istəklərinə tabe olanları mühüm mövqelərə irəli çəkir, böyük rəğbətlə yanaşırdı. « (19, 29)

Qazı Bürhanəddinin ağıllı işləri ilə üsyan və qiyamlar azaldı, iç çəkişmələri səngidi, xarabaya çevrilmiş iqtisadiyyat dirçəlməyə başladı, xalqın kəskin ehtiyacı olan yeyəcək məsələsi ortadan qaldırıldı. Qazının ədalətli idarəçiliyi xalqı ona bağladı. Onun bu dönəmdə hərbi səlahiyyətlər də əldə etməsi bütövlükdə dövlət işlərinin içərisinə yerləşməsinə yol açdı. Bu isə Qazı Bürhanəddin Əhmədə düşmənlərini aradan götürməyə imkan verdi, ordu içərisində nüfuzunu artırdı, qazının dövlətçilik bacarığı ilə birgə sərkərdəlik qabiliyyətinin də olduğunu üzə çıxardı.

Qazı Bürhanəddin Əhməd artıq qarşısıalınmaz gücə çevrilmişdi. Qazı Bürhanəddin Əhməd özünə düşmən saydığı Qılıc Aslanı da aradan götürdükdən sonra Xalq Məclisi onu 1381-ci ilin fevral ayının 9-da (14 zülqədə 782-ci il) Naib seçdi. Türk tarixçisi İsmayıl Haqqı Uzunçarşılı Qazının Naib seçilməsi tarixini 1380-ci il olaraq göstərib. (18, 188)

Naib olan Bürhanəddin Əhməd dövlətin idarə olunmasında gərək olan bütün mövqelərə yiyələndi. «...Bürhanəddin hər gün Divanda bulunur və gənc hökmdar da yanında oturur, işlər haqqında qərarlar verirdi...» (18, 198)

Artıq Naib olaraq dövlətin idarəçiliyini ələ alan Qazı Bürhanəddin Əhməd ölkənin bütün yerlərində olan və dövlət idarəçiliyində iştirak edənlərə məktub göndərərək hakimiyyətin onda olduğunu bildirdi. O, bir yazılı «buyruq» çıxararaq onu elçilərlə xalqa çatdırdı. Qısa zamanda hakimiyyətini bərkitmək, xalqın çaşqınlığına son qoymaq məqsədini gerçəkləşdirməklə bağlı «buyruq»da bu məsələlər qoyulmuşdu: «heç kim haqq və ədalət ziddinə başqa birisinə pislik etməyəcək, haqsız iş görməyəcək; arada baş verəcək münaqişələr şəriətin hökmü ilə müsəlman qazıları tərəfindən həll olunacaq və bu qazıların qəbul etdiyi qərarlara qeydsiz-şərtsiz riayyət olunacaq; heç kim şəriət qaydalarına qarşı və hənəfi məzhəbi qanunlarına zidd olan hərəkətə yol verməyəcək. Yazılı buyruqda xalqın bütün təbəqələrinin sakitliklə öz iş-gücü ilə məşğul olması üçün ayrıca olaraq müxtəlif münasibətlərlə təyin edilmiş vergilərin götürülməsi bildirilir; onların mal, can və namusunun təhlükəsizliyi haqqında təminat verilirdi. Bunlara əməl etməyənin kim olursa-olsun şiddətli cəza alacağı məsələsi də buyruqda öz əksini tapmışdır...» (19, 42)

Qazı Bürhanəddin siyasi imkanlarını artırmaq məqsədi ilə xalqla birbaşa ünsiyyətə getdi. Gündəlik keçirilən Divanda xalqın məsələlərini öz di-

lindən eşitdi və onu yoluna qoydu. Qazı Bürhanəddin artan nüfuzdan yararlanaraq başlıca rəqib saydığı Hacı Şadgəldini də aradan götürdü. Naibliyi dönəmində Qazı Bürhanəddin Əhmədin padşahlığının istiqlaliyyətini bəyan etməsi ilə bağlı bütün yolları açması və müstəqilliyini elan etməsi onun ən böyük uğuru, gördüyü işin önəmli sonluğu sayılmalıdır.

Qazı Bürhanəddin Əhməd 1381-ci ilin payızında özünün Sultan olduğunu bəyan etdi. O, adına bağlı bir dövlət qurdu. «...Adına xütbə oxutdurub pul kəsdirdi. İndən belə onun adı ilə anılacaq dövləti təkbaşına idarə etməyə başladı.» (19, 52)

Qazı Bürhanəddin Əhmədin hökmdarlığı çox çətin keçdi. O, ilk sırada dövlətin içində uzun zaman yer etmiş qarışıqlığı, özbaşnalığı, qanunsuzluğu, ayrı-ayrı bəylər arasındakı çəkişməni aradan qaldırmağa girişdi. Onun sultanlığını qəbul etmək istəməyən bəyləri ayrı-ayrı yollarla zərərsizləşdirdi. Dövlətin dağılmış ordusunu bir araya gətirdi. İnandığı adamları iş başına qoydu. «...Bürhanəddin Əhməd hökmdarlığı müddətincə Amasya əmiri Şadgəldi Paşazadə Əhməd və Ərzincan hakimi Mutahharəddin və sabiq Toqat əmiri Şeyx Nəcib, Canik bəyləri Tacəddin bəy və oğulları, Ömər oğlu Cüneyd, Eretnanın qardaşı oğlu Firudun, Doğu Qarahisar əmiri Məlik Əhməd, Seydi Hüsam, Nəbi və civardakı Monqol əşirətləri ilə uğraşmış, bunlardan başqa xaricdə Karamanoğulları, Osmanlılar, Misir Məmlük Sultanlığı ilə çarpışmış və çoxunda uğur qazanmışdır.» (18, 201)

Qazı Bürhanəddin Əhmədə hökmdarlığı sırasında iki kərə sui-qəsd cəhdi olmuşdu. O ancaq inandığı adamların və özünün bacarığı ilə bu ölüm təhlükəsindən qurtulmuşdur.

Güclü Sultan bu dönəmdə Qeysərini, Sivası, dövlətinin ona baş əyməyən bir sıra başqa bölgələrini idarəçiliyi içinə aldı, Misir məmlükləri, Osmanlı padşahı İldırım Bayəzid, Fateh Əmir Teymurla üz-üzə gəldi, onlardan çəkinmədən dövlətinin varlığını qorudu, cəsarətli, ağıllı dövlət başçısı, qüdrətli sərkərdə olduğunu yenə də göstərdi. Bu döyüşlərdə «Fəth, nüsrət, kəsr və hizmət əmri-ilahi ilədir, adam çoxluğu ilə deyildir» düşüncəsi ilə hərəkət etdi.

Getdikcə güclənən Qazı Bürhanəddin bir sıra uğurlar qazandı. «...Dövlətin bütün mənbələrini əlində toplamağa çalışan 40 yaşlı Sultan 1384-cü ilin baharında müəyyən dərəcədə arzusuna çata bilmişdi.

Qazandığı uğurlar Qazını mərkəzləşdirilmiş dövlətin tam təmsilçisinə çevirmiş, hər yandan ona qoşulanların sayı artmışdı. » (19, 69-70)

Qazı Bürhanəddinə qarşı çıxanlar onun soyundan Sultan olmadığını, bununla da Qazının dövlətə başçılıq etmək haqqının yoxluğunu önə çəkirdilər. Onu sıradan çıxarmağa çalışan Fateh Əmir Teymur da yazdığı məktubda bu məsələləri vurğulamışdı. Qazı Bürhanəddin Əhməd də Əmir Teymura ağıllı bir cavab yazaraq başçısı olduğu ölkənin öncə Çingiz xana bağlılığını, indii isə irs yolu ilə Sultan Mahmuda keçdiyini göstərmişdi. Bildirmək istəmişdi ki, Əmir Teymurun bu ölkəyə bir bağlılığı yoxdur.

Qazı Bürhanəddinin çətin, şərəfli sultanlığı, yurd uğrunda apardığı qanlı savaşlar, onun ərənlik, igidlik düşüncəsi, yurd, torpaq sevgisi Divanında yer tutan bir sıra şerlərin canına hopub. Qazının döyüşdüyü, uğur qazandığı yerlərin adları bu şeirlərin misralarına yerləşib. Bu şeirlərdə biz Fateh Qazı Bürhanəddinlə üz-üzə dayanırıq, döyüşən igidlərin səsini, şahə qalxan atların kişnərtisini eşidirik, dalğalanan qələbə bayrağını görürük. Qazı Bürhanəddin Əhmədin Fatehlik ruh və düşüncəsinin türk şeirinin kökündə dayanan tuyuqlarda yer tutması da çox önəmlidir. Türkün döyüş yolu, türkün varlığını göstərərək birinci sırada dayanan ərənlik anlayışının milli şeir şəklinə yerləşməsi doğmalığın, milli kökə bağlılığın göstəricisidir:

Ərənlər düşmənləri avlaşurlar
Qəmzələr bir-birini qovlaşırlar
Bən qulıyam dünyada ol nərlərün
Ki bu dəm meydanumda kükrəşürlər.

***

Ər yigit qayda ürkər ürkülərdən
Yaxşı at balınlamaz ilgülərdən
Düşmənlər nerdə olsa ditraşüblər
Kağan Aslan kaypınmaz dilgülərdən.

***

Ərənlər öz yolunda ər tək gərək
Meydanda erkək kişi nər tək gərək

Yaxşı yaman qatı yumşax ola xoş
Sərvərəm diyən kişi erkək gərək.

***

Yola gidər olamu şol nər buğur
Yolı uğradı hələ olsun uğur
Tanrı saxlasun annı yaman gözdən
Meydanda kükrəyicək kükür-kükür. (20, 530-533)

Qazı Bürhanəddinin qəzəllərində də Sultanlığı dönəmində döyüşüb ələ keçirdiyi yerlərin adı çəkilir, qələbənin yaratdığı coşqu, sevinc duyğusu incəliklə verilir:

Nolar əgər fətih olunsa bizə Sımalu,
Ki, görməmiş ola göz xubi işbu sımalu

Bu vadiylə bu dağda mühayyər oldu gönül,
Dərəsidür tolu kəklükü tağı ımalu

...Nə qıydı canuma bu qaşları ulaşıhlu
Ki, fürqətə sala dilər bu gözi qıymalu

Ətəgi biluna sox ol ayax elə saqi
Ki dər dökə bu gözüm ayağuna simalu

Saçun şəmaili gər asar isə könülümə
Şımal yili döşegim ola nə simalu
Havayilə çu...ikümüz üləşdük
Bu qismət içrə rəvamı ola kasimalu (20, 332)

Əmir Teymur Qazı Bürhanəddin Əhmədi özünə rəqib sayaraq onu sıradan çıxarmağa çalışsa da Qazının dövlətçilik yolunu, düşüncə və bacarığını, sərkərdəlik qüdrətini də yüksək dəyərləndirirdi. Qazı Bürhanəddin Əhmədin ömür yolundan danışan «Bəzmü Rəzm» də bu məsələ ilə bağlı önəmli bir yer var. «Əmir Teymur Qazı Bürhanəddini təkcə I

Bəyazidə qarşı başlıca əngəl hesab etmirdi. Onu özünə də güclü rəqib sayırdı...Buna görə də Teymur Anadolu haqqında məlumatı olan bir nəfərdən Bürhanəddinin düşmənlərinin kim olduğunu, onların qoşununun sayını öyrənmək istədi. Aldığı bilgiyə görə Qazının düşmənlərindən Mütəhhərtənin 5 min, Qaramanoğullarının 10 min, Tacəddinoğlu Mahmud Çələbinin 6 min, Taşanoğlunun min, Bafra əmirinin 2 min, monqol və tatarların, Diyarbəkr və Şam türkmənlərinin isə 20 minə qədər süvari qoşunları vardı. Əmir Teymur bu qədər düşmən qabağında Qazı Bürhanəddinin necə dura bildiyinə öz heyrətini gizlətmirdi... Ancaq bu düşmənlər mahir siyasətçi olan Qazıya qarşı heç zaman birləşib vahid qüvvəyə çevrilə bilməmişdilər. » (19, 110)

Qazı Bürhanəddin ən güclü rəqiblərindən belə çəkinmədi, qələbə ruhu ilə onların üstünə yeridi. Onun bu addımları da tuyuqlarında iz qoyub:

Əzəldən haq nə yazmış isə bolur
Göz nəni ki görəcək isə görür
İki aləmdə haqqa sığınmışız
Toxtamış nə ola, ya axsax Teymur (20, 522)

Qazı Bürhanəddin Əhmədin hakimiyyəti 18 il oldu. O, bu illərdə özünü güclü, mərkəzləşdirilmiş bir dövlət quran Sultan, düşmənlərinə qarşı amansız olan sərkərdə, bacarıqlı diplomat, qorxu bilməyən, xeyirxah, adamlara əl tutan, özünü xalqa bağlamağı bacaran insan, din, dil, elm, mədəniyyət, ədəbiyyat fədaisi kimi təsdiq etdi. Dövlətçilik, hərb, mədəniyyət, elm, ədəbiyyat, din, dil, diplomatiya yönündə gördüyü böyük işlər onu türk tarixinə «fəth atası» olaraq yerləşdirdi.

**QAYNAQLAR:**

1. Yaşar Yücel, Qazı Bürhaneddin, Ankara, 1987.
2. Məhəmməd Fuad Köprülü, Türk Ədəbiyyatı tarixi, İstambul, 1980.
3. Yaşar Yücel, Qazı Bürhaneddin Əhmədin dövləti, Ankara, 1970.
4. Türkiyə Teymurləngin xarici siyasətində və Yaxın Şərq, Ankara, 1980.

5. Cənub-Şərq Anadolusunun XII-XV əsrlər tarixi, Ankara, 1982.
6. Sultan II Osman dövrü «Zəfərnaməsi», Ankara, 1983.
7. Əhməd Kabaklı, Türk ədəbiyyatı, İstambul, 1966.
8. Seyid Kamal Karalıoğlu, Rəsmli, motivli türk ədəbiyyatı tarixi, I cild, İstambul, 1983.
9. Qazı Bürhanəddin Divanı, İstambul, 1943.
10. Nihad Sami Banarlı, Rəsmli türk ədəbiyyatı tarixi, İstambul, 1987.
11. İslam Ensiklopedisi, cild, VI.
12. Məhərrəm Ergin, Qazı Bürhanəddin Divanı, İstambul, 1987.
13. Əli Alparslan, Qazı Bürhanəddin Divanından seçmələr, İstambul, 1977.
14. Türk Ensiklopedisi, cild, VIII, İstambul, 1976.
15. Türk dili və ədəbiyyatı ensiklopedisi, cild, V, İstambul, 1982.
16. Azərbaycan türk ədəbiyyatı tarixində abidə şəxsiyyətlər, cild, II, Ankara, 1987.
17. Fuad Köprülü, Anadolu Səlcuqluları tarixinin yerli qaynaqları, TTQB, sayı, 7, 1943.
18. İsmayıl Haqqı Uzunçarşılı, Sivas və Kayseri hökmdarı Qazı Bürhanəddin Əhməd, TTKB, cild, XL, 1976, sayı, 159.
19. Yaşar Yücel, Qazı Bürhanəddin Əhməd və dövləti, Bakı, Elm, 1994.
20. Qazı Bürhanəddin Divanı (hazırlayan prof, doktor Məhərrəm Ergin), İstambul, 1980.
21. İsmayıl Haqqı Uzunçarşılı, «Eretna dövləti», TTQB, cild, XL, sayı, 158, 1976.
22. Ahmet Akşit, «Bəzmü Rəzm»ə görə Kayseri şəhəri və çevrəsi, TDTD, sayı, 129, 1997.
23. Müjgan Ücər, Qazı Bürhanəddin Əhmədin ölümü və türbəsi ilə ilgili mənqibə və inanışlar, Türk kültürü, sayı, 265, Ankara, 1985.
24. İsmayıl Haqqı Uzunçarşılı, «Sivas-Qeysəri və dolaylarında Eretna dövləti», TTK, bülleten, cild, XXXII, 1968, sayı, 126.